


# ŞƏRQ qapısı

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 103(23.990)

*4 iyun 2022-ci il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvan Muxtar Respublikası Ali Məclisində təltiflər və mükafatlar təqdim olunub





Ümummilli liderimiz Heydər Əliyevin xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdışı Azərbaycanın müstəqilliyini qoruyub saxlamış, sabitlik və sürətli sosial-iqtisadi inkişafın əsası qoyulmuşdur. Bu gün müstəqil Azərbaycan və onun Naxçıvan Muxtar Respublikası ulu öndərin yolu ilə inamla irəliləyir. Bunun nəticəsidir ki, sosial, iqtisadi, siyasi və mədəni həyatın bütün sahələrində uğurlar qazanılır. Ölkəmizin inkişafında öz sahələri üzrə fərqlənənlərin əməyinin qiymətləndirilməsi də bu tədbirlərin davamıdır.

İyunun 3-də – Milli Qurtuluş Günü ərəfəsində Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Tərəqqi" medalı, "Rəşadətli əməyə görə" nişanı və Prezident mükafatları təqdim olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov təltif olunanları təbrik edərək demişdir: Təltiflər ölkəmizdə əlamətdar gündə – Milli Qurtuluş Günü ərəfəsində təqdim olunur. Əgər Milli Qurtuluş Günü olmasaydı, ölkəmizdə bugünkü sabitlik, inkişaf və tərəqqi də olmazdı. Ulu öndər Heydər Əliyevin yolunun uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün Azərbaycan inkişaf edir, eyni zamanda çalışdıqları sahələrdə fərqlənənlərin əməyi dövlətimiz tərəfindən qiymətləndirilir.

Ali Məclisin Sədri təltif olunanları qarşıdan gələn Milli Qurtuluş Günü münasibətilə təbrik etmiş, gələcək işlərində uğurlar arzulamışdır.

Sonra Ali Məclisin Sədri "Tərəqqi" medalını, "Rəşadətli əməyə görə" nişanını və Azərbaycan Respublikası Prezidentinin mükafatlarını təqdim etmişdir.

"Tərəqqi" medalı ilə təltif olunan Yazgül Rzayeva səhiyyə işçiləri adından minnətdarlıq edərək demişdir: "Mən 1976-cı ildən Naxçıvan şəhərində həkim kimi fəaliyyət göstərirəm. Fəaliyyətdə olduğum illərə nəzər saldıqda qarşılaşdığımız çətinlikləri xatırlayıram. Lakin bu gün həyata keçirilən uğurlu siyasətin nəticəsidir ki, səhiyyə sahəsində nailiyyətlər qazanılıb, ucqar bölgələrdə belə tibb müəssisələri qurulub, peşəkar tibbi kadrlarla təminat yüksək səviyyədə həyata keçirilib".

Prezident mükafatçısı Şirzad Abutalıbov minnətdarlıq edərək demişdir: "Qazandığım nailiyyətlər muxtar respublikada olan yaradıcı mühitin nəticəsidir. Ali Məclis Sədrinin hər dəfə mədəniyyət işçiləri ilə görüşməsi bizə stimul verir, yeni nailiyyətlərə ruhlandırır. Eyni zamanda Ali Məclisin Sədri sənət adamlarının qayğıları, o cümlədən səhhəti ilə bağlı məsələləri də diqqətdə saxlayır. Naxçıvan Dövlət Kukla Teatrı bu müddət ərzində çalışıb ki, muxtar respublikamızın inkişaf və tərəqqisinin təbliğatçısına çevrilsin".

Prezident mükafatçısı Zülfiyyə Zeynalova demişdir: "Mən 1997-ci ildən Naxçıvan teatrında çalışıram. Həmin vaxt fəaliyyət göstərməyim üçün şərait yaradıldı. Yaradılan şəraitin nəticəsidir ki, artıq 25 ildir ki, bu sahədə çalışıram. Bu gün Prezident mükafatına layiq görülürəm. Buna görə ölkə Prezidentinə və Ali Məclisin Sədrinə minnətdarlıq edirəm. Çalışacağam ki, bundan sonra da teatrda maraqlı obrazlarla tamaşaçıların qarşısına çıxım".

Təltif olunan və Prezident mükafatına layiq görülənlərdən Mehriban İmanova, Abbas Babayev, Zaur Məmmədov, Elmar Həsənov, Elmin Məmmədov, İlahə Əliyeva, Siddiqə Hacıyeva, Sevinc Qasımova, Elvira Rzayeva, Aqib Seyidov da əməklərinə verilən yüksək qiymətə görə dövlətimizə minnətdarlıq etmişlər. Təltif olunanlar bütün sahələrdə əldə edilən nailiyyətlərin uğurla həyata keçirilən Heydər Əliyev siyasi xəttinin nəticəsi olduğunu vurğulamış, bundan sonra da ölkəmizin inkişafı və tərəqqisi naminə səylə çalışacaqlarına söz vermişlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Türkiyə Respublikasının Şərqi Anadolu İxracatçılar Birliyi İdarə Heyətinin sədri Əthəm Tanrıverdi: "Məqsəd işbirliyimizi daha da gücləndirmək və ixracı artırmaqdır"







*Türkiyə Respublikasının Şərqi Anadolu İxracatçılar Birliyi İdarə Heyətinin sədri Əthəm Tanrıverdinin rəhbərlik etdiyi nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasına səfər edib. Heyət səfər çərçivəsində Naxçıvan Biznes Mərkəzi, "Ləzzət Biskvit və Şokolad Fabriki" Məhdud Məsuliyyətli Cəmiyyəti, "Badamlı" Mineral Sular Zavodu ilə tanış olub.*

Türkiyə Respublikasının Şərqi Anadolu İxracatçılar Birliyi İdarə Heyətinin sədri Əthəm Tanrıverdi "Şərq qapısı" qəzeti üçün aldığımız müsahibədə dedi: – 29 min üzvü, 2 milyard 542 milyon dollar ixracatı olan birliyin idarə heyətinin sədriyəm. Çox böyük bir nümayəndə heyəti – Türkiyənin aparıcı iş adamları ilə qardaş ölkəmiz Azərbaycanın bir parçası olan Naxçıvana gəldik. Məqsəd işbirliyimizi daha da gücləndirmək və ixracı artırmaqdır. Biz buraya həm məhsul satmaq, həm də məhsul almaq üçün gəlmişik. Naxçıvanda çox mehribanlıqla qarşılandıq. Türkiyə Respublikasının Naxçıvandakı Baş Konsulluğunu ziyarət etdik. Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri və Dövlət Gömrük Komitəsinin sədri ilə gələcək iqtisadi tərəfdaşlıqla bağlı səmərəli görüşlərimiz oldu. Biznes Mərkəzi ilə tanışlıq zamanı gördük ki, Naxçıvanda çox gözəl məhsullar istehsal edilir, bu bizi qürurlandırdı. Buradakı görüşümüzün bir sıra məsələlərin həllində faydalı olacağına inanırıq. Bu gün dünyada hər şey istehsala bağlıdır. Naxçıvanda bununla bağlı hər kəsdə ciddi bir həyəcan, istehsal etmək, bizneslə məşğul olmaq həvəsi vardır. Bu ilin muxtar respublikanızda "Sənaye ili" elan olunması bu diyarda iqtisadiyyatın, xüsusilə də sahibkarlığın inkişafına, ixrac potensialının artırılmasına hədəflənmiş mühüm addımdır. Gələcəkdə Naxçıvanda istehsal gücünün daha da artacağını, ixrac imkanlarının genişləndəcəyini bir daha yəqin etdik. Əlbəttə ki, bizim birgə əməkdaşlığımız buna yeni töhfə verəcək.

Mən qardaş ölkəmizin xalqını Qarabağda qazandığı qələbə münasibətilə bir daha təbrik edirəm. Açılacaq dəhlizin hər kəs üçün xeyirli olmasını diləyirəm. Bu, çox vacib bir dəhliz olacaq. Artıq dünyada məhsul istehsal etməklə bərabər, onun daşınmasını və logistikasını təşkil etmək də çox mühüm məsələdir. Dəhliz açıldıqdan sonra logistika xərcləri də çox ciddi şəkildə azalacaq və bütün dünya bundan faydalana biləcək. Qismət olsa, tezliklə Zəngəzur dəhlizinin açılışını görəcəyik. Nümayəndə heyəti adından səmimi qarşılanma və göstərilən diqqət üçün minnətdarlığımı bildirirəm. Ümid edirəm ki, birlikdə daha yaxşı işlər görəcəyik.

Digər həmsöhbət olduğumuz İqdırda taxta və taxta məhsulları istehsal və ixrac edən gənc sahibkar Bərat Ataş və Beşiktaş İnşaat Sənaye Ticarət Limited Şirkətinin sahibi Müzəffər Taş Cahan Gəmiqaya kimi şirkətlərlə uğurlu əməkdaşlıq etdiklərini və yeni sahələrə də sərmayə qoyacaqlarını dedilər. Onlar Naxçıvanın çox sürətlə inkişaf etdiyini, ticarət sahəsində əməkdaşlıq əlaqələrininin bundan sonra da davam etdiriləcəyini bildirdilər.

✍ Güntac ŞAHMƏMMƏDLİ

*Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətində Naxçıvan Dövlət Universitetinin Geodeziya və xəritəçəkmə mühəndisliyi ixtisasında təhsil alan tələbələr üçün xidmətin bazasında təşkil olunan istehsalat təcrübəsi başa çatıb.*

## Tələbələrin istehsalat təcrübəsi başa çatıb

Yekun tədbirdə xidmətin rəisi Müslüm Cabbarzadə Ali Məclis Sədrinin müvafiq sərəncamları ilə müəyyənləşdirilmiş vəzifələrin icrası, hamiliyə verilmiş ixtisaslarda təhsil alan tələbələrin bacarıqlı mütəxəssis kimi formalaşması istiqamətində görülmüş işlərdən bəhs edib.



Xidmətin tabeliyində olan "Yerquruluşu və Kartoqrafiya" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru Cəfər Əliyevin, Naxçıvan Dövlət Universitetinin Meliorasiya və geodeziya kafedrasının müəllimi Akim Axundovun və Geodeziya və xəritəçilik mühəndisliyi ixtisasının IV kurs tələbəsi Kamil Cəfərlinin çıxışları dinlənilib. Sonda təcrübə keçən tələbələrə sertifikatlar təqdim olunub.

Qeyd edək ki, istehsalat təcrübəsi zamanı tələbələrə xidmətin fəaliyyəti ilə bağlı geniş məlumat verilib, peşəkar mütəxəssislər tərəfindən ArcGIS proqramından istifadə etməklə müxtəlif məzmunlu və təyinatlı xəritələrin hazırlanması, kameral şəraitdə kosmik şəkillərdən, ortofotolardan və digər məlumatlardan istifadə qaydaları, müasir geodeziya avadanlıqları vasitəsilə obyektlərin və torpaq sahələrinin ölçülməsi, sxematik planların hazırlanması ilə bağlı praktik məsələlərin həlli öyrədilib.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

***Son illərdə dinamik iqtisadi inkişafı səciyyələndirən əsas cəhətlərdən biri muxtar respublikada sənayenin müxtəlif sahələrinin inkişafının təmin edilməsi, yeni istehsal sahələrinin yaradılmasıdır. Bütün bunlar sənaye quruculuğu sahəsində nəzərəçarpan uğurlar qazanılmasına imkan verən başlıca səbəblərdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən 2022-ci ilin “Sənaye ili” elan olunması bu istiqamətdə həyata keçirilən tədbirlərin coğrafiyasını daha da genişləndirib, sənayeləşməni sürətləndirib. İnkişafı prioritet vəzifəyə çevrilmiş muxtar respublikamızda sənayedə qazanılan uğurların başqa bir səbəbi isə birbaşa sahibkarlıq fəaliyyəti ilə bağlıdır. Elə məhz bunun ifadəsidir ki, diyarımızda istehsal edilən sənaye məhsulunun 93 faizi özəl bölmənin payına düşür.***

*“Sənaye ili” – 2022*

# Naxçıvan mərmərinin istehsal gücü artırılır

## *Bu məhsuldan Şuşanın yenidən qurulmasında da istifadə edilir*





Təbii sərvətləri, yeraltı və yerüstü nemətləri ilə tanınan muxtar respublikamızda belə təbii ehtiyatlardan səmərəli istifadə isə bu gün dövlət siyasətinin əsasını təşkil edir. Həmin ehtiyatların üzə çıxarılması, Azərbaycanın brend məhsuluna çevrilməsi sahəsində fəaliyyət göstərən sənaye sahələrindən biri də “Gəmiqaya Daş Məhsulları Sənaye Kompleksi” Məhdud Məsuliyyətli Cəmiyyətidir. Müəssisə travertin və mərmər istehsalı ilə həm ölkənin daxili bazarında bu məhsullara olan tələbatı ödəyir, həm də xarici ölkələrə ixrac edir. Biz də bu kompleksin işi ilə yaxından tanış olmaq, “Sənaye ili”ndə kompleksin hansı töhfələrinin olacağını öyrənmək üçün adıçəkilən ünvana üz tutduq. Kompleksin istehsalat rəisi ***Zeyqəm Rəhimov*** bizi müəssisə ilə yaxından tanış etdi. Bildirdi ki, tikintisinə 2009-cu ilin ortalarından başlanan kompleks travertin və mərmər emalı üzrə ixtisaslaşdırılıb. Muxtar respublikanın Qarabağlar, Çalxanqala və Yuxarı Buzqov ərazilərindəki zəngin yataqlardan çıxarılan travertin və mərmər daşları emal üçün bu komplekse gətirilir. Ümumi sahəsi 53 min kvadratmetr olan kompleksdə müxtəlif çeşiddə inşaat və məişət məmulatı istehsal edilir. Məhsul buraxılışında istifadə edilən daşlar təbii olaraq antibakterial keyfiyyətə malikdir.

Zeyqəm Rəhimov deyir ki, 2010-cu ildən fəaliyyət göstərən müəssisənin açılışında Azərbaycan Respublikasının Prezidenti işçi qüvvə ilə görüşü zamanı zavodun əhəmiyyətini xüsusi vurğulayıb, tövsiyələrini verib. Bu tövsiyələri əldə rəhbər tutan və tamamilə yerli xammal əsasında fəaliyyət göstərən bu kompleksdə Türkiyə istehsalı olan “SESEMAK” markalı avadanlıq quraşdırılıb. Konkret desək, kompleks bu gün dünya standartlarına cavab verən texnoloji avadanlıqlarla təmin olunub. Böyük və kiçikölçülü travertin plitələrdən, əsasən, binaların fasadının və həyətyanı sahələrin bəzədilməsində, mozaik travertinlərdən isə müxtəlif naxışlı bəzək üzlüklərin hazırlanmasında istifadə edilir. Müəssisə gündəlik olaraq 2500 min kvadratmetr məhsul istehsal etmək gücünə malikdir. Kompleksdə travertin məhsulları ilə yanaşı, sədəf, mərmər məmulatlarının istehsalı da həyata keçirilir, muxtar respublikamızda aparılan genişmiqyaslı quruculuq tədbirlərində yerli tikinti materiallarına olan tələbatın ödənilməsində mühüm rol oynayır.





Müsahibimin sözlərinə görə, burada 180-ə yaxın vətəndaş işlə təmin olunub. Müəssisədə kişilərlə yanaşı, qadınlar da fəaliyyət göstərirlər.

Marağımıza səbəb olan bu qadınlarla elə iş başında həmsöhbət olduq. Onlardan 56 yaşlı ***Günəş Rzayeva*** bildirdi ki, artıq 13 ildir, burada işləyir. Zəriflik timsalı olan qadınlarımız üçün bu iş ağır deyilmi? sualımıza isə Günəş xanım belə cavab verir:

– Ay qızım, işin yüngülü, ağırı olmaz. Təki işini sevib, tapşırılan işin öhdəsindən layiqincə gəlməyi bacarasan. Keçmişimizə nəzər salanda görürük ki, Azərbaycan xanımları heç zaman işdən qorxmayıb, hətta kişilərlə birlikdə at səyirdib, silah tutublar. Elə nənələrimizdən qalan bu qoçaqlıq və bir də muxtar respublikamızın təbii sərvətlərinin hazırlanmasında, tanıdılmasında əməyimizin olması istəyi bizə işimizin öhdəsindən gəlməyə güc verir. Üstəgəl ki, bu gün müəssisədə əl əməyinə ehtiyac qalmayıb; hər iş, demək olar ki, avtomatlaşdırılıb.

Zeyqəm müəllimlə davam edən söhbətimizdən öyrənirik ki, ötən dövr ərzində bir çox beynəlxalq sərgilərdə iştirak edən müəssisə nümayəndələri sərgidə nümayiş olunan nümunələrlə bu brendi dünya dövlətlərinə tanıtmış, nəticədə, məhsullar xarici şirkətlərdə maraq oyatmışdır. Bütün bu tədbirlər öz bəhrəsini digər ölkələrə ixrac olunan məhsul faizində də özünü göstərmişdir. Belə ki, zavod bu ilin ötən 5 ayı ərzində hazırlanan 14650 ton travertin daş məhsullarını sifarişə uyğun olaraq İqtisadiyyat Nazirliyi tərəfindən verilmiş mənşə sertifikatları əsasında Gürcüstan və Türkiyə respublikalarına göndərib.

Artıq bir neçə müddətdir ki, Rusiya və Qazaxıstanla əməkdaşlıq planları üzərində işləsələr də, pandemiya səbəbi ilə bu əməkdaşlıq bir qədər ləngiyib. Zeyqəm müəllim deyir ki, 30 il müddətində erməni vandallarının tapdağı altında qalan Qarabağımızın yenidən qurulması, ilkin gözəlliyinə qaytarılmasına öz məhsulları ilə töhfələrini verirlər. Belə ki, Şuşa şəhərinin abadlaşdırılmasında zavodun məhsullarından istifadə olunur.

*Müstəqillik əldə olunandan sonra sənaye sahəsinə göstərilən dövlət dəstəyi, o cümlədən ailə təsərrüfatçılarına, sənaye sahələrinə, sahibkarlara güzəştli kreditlərin verilməsi nəticəsində bu sahələr öz fəaliyyətlərini genişləndirib və nəticədə, muxtar respublikamızın bir sıra sənaye məhsulları üzrə idxaldan asılılığı azalıb, bəziləri üzrə isə ixrac potensialı yaranıb. “Gəmiqaya Daş Məhsulları Sənaye Kompleksi” Məhdud Məsuliyyətli Cəmiyyəti də bu prosesdə ön sıralarda gedir.*

**✍ Telli MƏMMƏDOVA**

# Növbəti immunlaşdırma həftəsində 184 uşaq peyvəndə cəlb olunub

Məlumdur ki, orqanizmdə infeksion xəstəliklərə qarşı immunitet peyvənd sayəsində yaranır. Uşaqlarımızın bir çox infeksion xəstəliklərdən qorunmasında peyvəndlərin böyük rolu var. Peyvənd sayəsində orqanizmdə immun reaksiya formalaşır və gələcəkdə insan virus və bakteriyaya yoluxsa belə immun sistemi onlarla mübarizəyə hazır olur. Qızılca, parotit, poliomillit, Hepatit B, suçiçəyi, yüngül infeksion xəstəlik kimi bilinsə də, ağırlaşma zamanı qalıcı fəsadlar yarada bilən bir çox digər infeksion xəstəlikləri misal göstərmək olar ki, bu cür xəstəliklərə qarşı orqanizmin təbii müdafiə qüvvələrinin stimullaşdırılmasında və orqanizmin xəstəliyə qarşı daha effektiv mübarizəyə hazırlanmasında peyvəndolma vacib tədbirlərdəndir.



Muxtar respublikamızda da bu istiqamətdə – uşaqların sağlamlığının qorunması, onların hər hansı bir xəstəlik və ya infeksiyaya yoluxmasının qarşısının alınması istiqamətində mühüm işlər görülür, bütün uşaqlar həkim nəzarəti ilə peyvənd təqviminə əsasən vaxtlı-vaxtında peyvəndə cəlb olunurlar. Eyni zamanda Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin tabeliyində olan tibb müəssisələri tərəfindən mütəmadi olaraq maarifləndirici tədbirlər keçirilir, immunlaşmanın əhəmiyyəti barədə valideynlərə ətraflı məlumatlar verilir.

Lakin çox təəssüflə qeyd etməliyik ki, bəzən valideynlər uşaqlarını peyvənd etdirməkdən imtina edirlər. Bir çox valideynlər hansısa yalan məlumatlara inanaraq uşaqlarının peyvənd olunmasından imtina etməklə onları riskə məruz qoyurlar. Muxtar respublikamızda bu cür halların aradan qaldırılması istiqamətində də mühüm işlər görülür, Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin illik iş planına uyğun olaraq şəhər və rayon xəstəxanalarında il ərzində qrafik əsasında immunlaşdırma ilə bağlı aksiyalar təşkil edilir, peyvənddən yayınanlar siyahıya uyğun olaraq peyvəndə cəlb edilir. Ənənəvi olaraq təşkil edilən növbəti immunlaşdırma həftəsində Naxçıvan şəhəri üzrə 107, Babək rayonu üzrə 23, Şahbuz rayonu üzrə 5, Sədərək rayonu üzrə 1, Şərur rayonu üzrə 13, Kəngərli rayonu üzrə 22, Ordubad rayonu üzrə isə 13 olmaqla, ümumilikdə, 184 uşaq QPM, HİB, OPV, PK, DT, GDT, İPV peyvəndlərinə cəlb edilib.

İnfeksion xəstəliklərə yoluxma hallarının azaldılması və ya bu cür xəstəliklərin yarada biləcəyi ağırlaşmaların qarşısının alınması məqsədilə keçirilən immunlaşdırma həftəsi çərçivəsində aparılan düzgün maarifləndirmə işlərinin nəticəsidir ki, peyvənddən yayınanların sayında azalmalar qeydə alınır, valideynlər uşaqlarının peyvənd olunmasında könüllü iştirak edirlər. Həmçinin immunlaşmada valideynlərə peyvəndolmanın əhəmiyyəti və immunlaşma sayəsində orqanizmdə yarana biləcək xəstəliklərin və hətta ölümün belə qarşısını almağın mümkünlüyü barədə məlumat verilir.

Qeyd edək ki, dünyada yayılan COVID-19 infeksiyasından ən çox əziyyət çəkən və ölüm sayının yüksək olduğu ölkələr sırasında peyvənddən imtina edən ölkələr üstünlük təşkil edir.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

*Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin və Gənclər Fondunun birgə təşkilatçılığı ilə Vətən müharibəsi qaziləri ilə gənclərin görüşü olub.*

# Gənclər qazilərlə görüşüb



Naxçıvan şəhərindəki “Milli Yeməklər”də keçirilən görüşdə əvvəlcə şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin baş zabiti Nurlan Məhərrəmov və Naxçıvan Muxtar Respublikasının Gənclər Fondunun əməkdaşı Sübhan Rəhimli görüşdə çıxış ediblər. Çıxışlarda Tarixi Qələbədən sonra təşkil olunan belə görüşlərin həm də yeniyetmə və gənclərin milli-mənəvi, hərbi-vətənpərvərlik ruhunun yüksəlməsində, onların Vətənə, xalqa, dövlətə layiqli vətəndaş kimi formalaşmasında böyük əhəmiyyəti vurğulanıb.

Görüşdə iştirak edən qazilər yurd həsrətinin sona çatmasında, tarixi Qələbənin qazanılmasında onların da pay sahibi olmasının əvəzsiz duyğu olduğunu dilə gətiriblər, döyüş xatirələrindən danışıblar.

Sonra Vətən müharibəsi iştirakçılarına təşəkkürnamələr təqdim olunub.

Bu il aprel ayının 11-də Heydər Əliyev adına Hərbi Liseyin kursantları arasında keçirilən “Qalib Azərbaycan, Azad Qarabağ” adlı inşa yazı müsabiqəsinin qaliblərinə də mükafatlar təqdim edilib.

***Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin mətbuat xidməti***



# Məzun tədbiri olub

Naxçıvan Müəllimlər İnstitutunda təhsilini başa vuran tələbələr üçün məzun tədbiri keçirilib.Tədbiri giriş sözü ilə açan institutun rektoru Azad Novruzov qeyd edib ki, Naxçıvan Müəllimlər İnstitutunun fəaliyyətini günün tələbləri səviyyəsində qurması ölkəmizdə təhsil sahəsində aparılan məqsədyönlü siyasətin nəticəsidir. Rektor diqqətə çatdırıb ki, ilk dəfə 2004-cü ildə 1 ixtisas üzrə 27 nəfər tələbəsini məzun edən Naxçıvan Müəllimlər İnstitutunun bu il 8 ixtisas üzrə 291 bakalavr, 5 ixtisas üzrə 40-a yaxın magistr tələbəsi məzun olur. Vurğulanıb ki, hazırda institutda 15 ixtisas üzrə bakalavr, 5 ixtisas üzrə magistr, 5 ixtisas üzrə doktorantura səviyyəsi üzrə kadr hazırlığı aparılır və 2 istiqamət üzrə Dissertasiya Şurası fəaliyyət göstərir.

İnstitutun gələcək perspektivlərindən danışan rektor bildirib ki, müəllim kadrları hazırlayan təhsil müəssisəsi kimi məqsəd müasir kompetensiyalara cavab verə bilən, özünü hər sahədə mükəmməl səviyyədə doğrultmağı bacaran, əsl vətənpərvər şəxsiyyətlər formalaşdırmaqdır. Bu istiqamətdə institutun professor-müəllim heyəti ilə yanaşı, təhsil alan və məzun olan hər bir tələbənin üzərinə böyük məsuliyyət düşür. Gənclər heç vaxt bu müvafiq zaman kəsiyində aldıqları biliklərlə kifayətlənməməli, öz üzərlərində müntəzəm işləyərək daim təkmilləşməli, Azərbaycanın yeni quruculuğunda fəal iştirak etməlidirlər.

İnstitutun Tədris və tərbiyə işləri üzrə prorektoru Çapay Quliyev, İxtisasartırma və yenidənhazırlanma üzrə prorektoru Həbibə Allahverdiyeva, elmi katib Qurban Qurbanlı, fakültə dekanları Samirə Həsənova və Rövşən Vəliyev məzunları təbrik ediblər.

Sonra İbtidai sinif müəllimliyi ixtisası üzrə IV kurs tələbəsi Gülcan Əlizadə bütün məzunlar adından çıxış edərək onların təhsil almaları və hərtərəfli inkişafları üçün yaradılmış şəraitə görə minnətdarlığını bildirib, məzunlar adından Vətənə, millətə layiqli övlad olacaqlarına, daim onlara göstərilən etimadı doğruldacaqlarına söz verib.

Tədbirin bədii hissəsində institutun teatr studiyasının üzvləri olan tələbələrin və məzunların iştirakı ilə rəqslər nümayiş edilib, şeir və bir-birindən gözəl musiqi nömrələri səsləndirilib, səhnəciklər təqdim edilib. Sonda Təsviri incəsənət müəllimliyi ixtisasının məzunlarının hazırladıqları hesabat sərgisinə baxış olub.

***Naxçıvan Müəllimlər İnstitutunun mətbuat və ictimaiyyətlə əlaqələr xidməti***

*Elə ki baharın təmtəraqlı, güllü-çiçəkli may ayı yurdumuza qədəm qoydu, hər bir Naxçıvan sakininin süfrəsini yaşıl donlu, dadlı-tamlı göycə bəzəyər. Ümummilli liderimiz Heydər Əliyevin də çox sevdiyi, muxtar respublikamızın brendinə çevrilən bu məhsulun yetişdirilmə ənənələri qədim çağlara gedib dayanır. Belə ki, diyarımızda iriliyinə, dadına və digər genetik xüsusiyyətlərinə görə fərqli növlərə malik bu məhsulu naxçıvanlı bağbanlar, xalq seleksiyaçıları VII əsrdən bəri yetişdirməyə başlayıblar. Bu gün hər bir həyətdə ən azı iki-üç ağacına mütləq şəkildə rast gəlinən göycənin şöhrətinin artmasında 2016-cı ildən başlayaraq keçirilən "Göycə" festivalının da rolu böyükdür. Tarixi-memarlıq abidəsi olan Naxçıvanqala artıq növbəti belə festivalı qarşılamaq üzrədir. Biz də "Şərq qapısı" qəzetinin əməkdaşları olaraq ənənəmizə uyğun şəkildə növbəti məhsul bayramı öncəsi bir neçə təsərrüfatçı ilə həmsöhbət olub bu maraqlı, özünəməxsus meyvənin yetişdirilmə üsulları barədə öyrənməyə çalışdıq.*

# Naxçıvan bağlarının ləziz barı...

Şərur rayonu zəngin mədəniyyəti, çoxəsrlik tarixi ilə yanaşı, bu torpaqda yetişən nemətləri ilə də məşhurdur. Onlardan da biri göycədir. Rayonda bir çox sahibkar, ailə təsərrüfatçısı fərdi təsərrüfatında göycə yetişdirir, məhsulun satışı ilə yaxşı gəlir əldə edir. **Yadulla Həsənov** da həmin fərdi təsərrüfatla məşğul olanlardan biridir. O deyir ki, bütün ağaclar kimi, göycəyə də qayğı lazımdır. Əgər bol məhsul istəyirsənsə, yaxşı da qulluq etməlisən. Uzun illərdir ki, bu işlə məşğul olan Yadulla dayı söhbət əsnasında bildirir ki, göycə üçün, əsasən, alça və almaxara ağaclarına calaq vurulur. Təcrübələr əsasında demək olar ki, bu ağaclar vurulan calaqdan sonra yaxşı bar verir, kökaltı hissələri yaxşı inkişaf etdiyindən gec quruyur, xəstəliklərə davamlı olur. Dədə-babalarımız deyərdi ki, calaq arpa biçini zamanı edilməlidir. Calaq vurulduqdan iki, yaxud da üç il sonra artıq göycə ağacı bar verir.

Bağbanın sözlərinə görə, yağışlı havalarda ağacları zərərvericilər daha tez məhv edə bilər. Buna görə də erkən yazda və çiçəkləmədən sonrakı dövrdə ağacları dərmanlamaq lazımdır. Məhsul verməyə bir ay qalmış dərmanlama dayandırılır ki, kimyəvi tərkib ağacın meyvəsinə təsir göstərməsin. Ağacları çiçəkləmə vaxtında dərmanlamaq olmaz. Bütün ağaclar kimi, göycə ağacının da mineral maddələrə, üzvi gübrələrə ehtiyacı var. Lakin ağaca gübrə verilən zaman diqqətli olmaq lazımdır. Gübrə mütləq çiçəkləmədən əvvəl verilməlidir. Erkən yazda göycə ağacı budanmalıdır. Onun üst təpə tumurcuqları təmizlənməsə, məhsulu az olar. Ağaca verilən suyun da onun məhsuluna bilavasitə təsiri var. Belə ki, şirin su ilə suvarılan ağacın meyvəsi ilə şor su ilə suvarılan ağacın meyvəsi arasında, əlbəttə ki, fərq olacaq.

Yadulla Həsənov qeyd edir ki,



göycə alçadan tez yetişir. Yəni göycə satışa çıxarıldığı vaxt alçalar çox balaca və acı olur. Alçanı, adətən, göy ikən deyil, yetişəndən sonra yığıb istifadə edirlər. Göycə ilə bir fərqi də elə budur.

Təsərrüfatçı bu gün muxtar respublikamızda qədim diyara məxsus göycə kimi digər yerli meyvə sortlarının istehsalının artırılması ilə yanaşı, onların təbliği və tanıdılmasında, bu sahədə görülən tədbirlərdən də danışdı: "Hər il "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində keçirilən "Göycə" festivalında bol məhsulla iştirak edirəm. Burada ölkəmizin müxtəlif regionlarından, həmçinin qonşu ölkələrdən Naxçıvana gələn turistlərə çox rast gəlmişəm".

Ordubad rayonu tarixən meyvəçilik diyarı kimi tanınıb. Buranın "Bağlar diyarı" statusunu alması meyvəçiliyin və tingçiliyin inkişafı ilə sıx bağlı olub. Rayonda qədim meyvəçilik ənənələrini öz fəaliyyəti ilə yaşadan, itmək təhlükəsi ilə üz-üzə qalan meyvə ağacı sortlarını bərpa edən, 31 illik bağçılıq təcrübəsinə malik Ordubad rayon sakini **Rahim Kərimov**la həmsöhbət oluram. Onun dediklərindən:

– Hazırda kənd təsərrüfatının bağçılıq və üzümçülük sahəsi ilə məşğulam. Bağımda 275 növdə 1450 ədəd meyvə ağacı əkmişəm.

Müsahibim deyir: – Ordubadın, əsasən, beş meyvəsi vardır ki, məşhurdur. Onlar limon, heyva, cəviz, şaftalı və ərikdir. Lakin Ordubadda göycə ağacları əkib-becərməklə məş-



ğul olan təsərrüfatçılar çoxdur. Rayonumuzda bu gün göycənin 20-yə yaxın xırdadənəli, uzunsov, yumru, nazik və qalınqabıq, şirin, sulu, turş, böyrək formalı və digər növləri becərilir. Mən də 6 sort göycə tinginin becərilməsi ilə məşğulam, 80-ə yaxın göycə ağacım vardır. Bu ağacların yaşı 3-30 arasıdır. Belə ki, sortlar içərisində göycə, göycəsultanı, təbərzə alça, sarı alça, yaz, yay, payız mələsi, şabranı, qara alça vardır. Bildirim ki, göycənin tərkibində müxtəlif turşular vardır. Bu turşular insan orqanizmində maddələr mübadiləsi, qanın durulaşması və həzmin gücləndirilməsində, zərərli maddələrin bədəndən atılmasında, insanın sağlam yaşamasında mühüm rol oynayır. Göycə bu cəhətdən faydalı meyvə sayılır. Göycəni yetişdirmək üçün bir neçə mərhələ keçilir. Muxtar respublikamızda göycəni əriyə, badama, alçaya və gavalıya calaq vurmaqla artırırlar. Gavalıya calaq vuranda göycə meyvəsi daha iri olur. Bir də ki, göycə külək tutmayan sahələrdə daha çox məhsul verir. Ağaca vaxtlı-vaxtında aqrotexniki qulluq



göstərmək vacibdir. Gövdəətrafını yumşaldıb gübrə səpmək, kökləri zədələməmək, dibindəki alaq otlarını təmizləmək, çaqqalalar buğda boyda olanda onlara əlavə gübrə vermək, vaxtında xəstəliklərə qarşı bordo məhlulu, eləcə də zərərvericilərə qarşı zəhərli kimyəvi dərmanlar çiləmək və müntəzəm suvarmaq lazımdır. Ağacları 5-7 gündən bir suvarmaq, meyvənin yetişməsinə az qalmış isə suyunu azaltmaq və yaxud kəsmək lazımdır ki, meyvələr çatlamasın.

Ta qədimdən Naxçıvan şəhəri məhəllələrinin həyətyanı sahələrində yetişdirilən göycə öz dad-tamına, ətrinə görə digər bölgələrimizdə yetişdirilən göycədən üstün hesab edilib. Xüsusilə də "Çuxur məhəlləsinin göycəsi" hər zaman adla deyilib. Bəs burada yetişdirilən göycəni digərlərindən fərqləndirən özəllik nədir? Elə bu sualla üz tuturuq Çuxur məhəlləsinə. Çuxurun ən zəhmətkeş göycə təsərrüfatçıları **Zəminə Əliyeva** və onun həyat yoldaşı **Xudakərim Əliyevi** tapırıq. Qapıdan içəri keçdikdə bir-birindən gözəl gül-çiçəklərin xoş ətri adamı valeh edir. Həyətdəki səliqəsahman isə insanın könlünü oxşayır. Hələ göycə ağaclarından danışım sizə. Budaqları meyvənin ağırlığından yerə dəyən ağaclardakı göycələr sanki adamın üzünə gülür. Heyrətlə ağaclara baxdığımı görən Zəminə xanım deyir ki, ay qızım, atalar yaxşı deyib: "Bağa baxarsan, bağ olar, baxmarsan, dağ". Bu bağın bu cür məhsuldar olması üçün çox çalışmışıq. Ağacların nazını övladımız kimi çəkmişik. Onların boy atıb, bar verməsi üçün qayğısına qalmışıq. Göycə ağaclarına isə xüsusi qayğı göstərmişik. Ümumiyyətlə, bu ağacın barı çox zəhmət tələb edir. Vaxtlı-vaxtında budanıb, dərmanlamasan, çətin ki, bar verə. Göycənin yaxşı məhsul verməsi üçün torpağın rütubətli olması vacibdir. Quraq iqlimdə göycə bağları suvarılmadıqda həm ağac yaxşı bar vermir, həm də meyvələri keyfiyyətsiz olur. Zəminə Əliyeva deyir ki, bu ağaclar bizə yoldaşımın atasından miras qalıb. Bu bağı sevməyimizin, onun zəhmətini sevərək çəkməyimizin əsas səbəbi





odur ki, atamızdan bizə qalan bu yadigarların kökünə daş atmayaq. Onları miras kimi qoruyaq. Söhbətimizə Zəminə Əliyevanın həyat yoldaşı Xudakərim Əliyev də qoşulur. Deyir ki, həyətyanı sahəsində 30-a yaxın göycə ağacı var. Hələ ağaclar çiçək açmamış Azərbaycanın hər yerindən göycə sifariş edirlər. Yetişdirdiyimiz bu məhsulun müştərisi həmişə başının üstündə olur. Naxçıvan göycəsinin adının dillər əzbəri olduğunu deyən təsərrüfatçı söhbətinə belə davam edir: – Bu meyvə Vətənimizin digər bölgələrində "alça" adı ilə tanınır. Lakin həmin meyvə, əslə, Naxçıvan torpağında bitən göycənin dadını vermir. Bu meyvədən bir dadan yenə dadmaq istəyir. "Çuxurda yetişdirilən göycənin digər məhəllə və bölgələrimizdə yetişdirilən göycədən fərqi nədədir?" sualına 73 yaşlı Xudakərim kişi belə cavab verir: – Dədə-babalarımızdan eşitmişik ki, Naxçıvanın Çuxur məhəlləsində yetişdirilən göycənin əvəzi yoxdur. Bunun səbəbi isə buradakı meyvə ağaclarının məhz kəhriz suyu ilə suvarılmasıdır. Kəhriz suyu ilə suvarılan meyvənin qabığı nazik, özü isə kövrək olur. Çəyirdəkdən tez ayrılır. Şirin, sulu olması isə bu məhəllədə yetişən göycəni digərlərindən fərqləndirir.

Yaz mövsümünün ən ləziz təamı sayılan göycənin muxtar respublikamızın bütün bölgələri kimi, Babəkdə də yetişdirilməsi ilə xüsusi məşğul olanlar çoxdur. Onlardan biri rayonun Kalbaoruc Dizə kənd sakini **Nicat Şükürovdur**. Muxtar respublikada keçirilən "Ailə təsərrüfatı məhsulları", "Göycə" festivallarında mütəmadi olaraq iştirak edən təsərrüfat adamı 10 ilə yaxındır ki, 2,5 hektar ərazidə alma, armud, şaftalı, şələli, ərik, göycə ağaclarından ibarət bağ salıb. Ailə təsərrüfatçısı illərin zəhmət təri ilə əsl cənnətməkana çevrilən bu bağın min bir zəhmətlə qaygısını çəkir. Ərsəyə gətirərək yaxşı qazanc əldə etdiyi göycənin yetişdirilmə xüsusiyyətlərindən də söhbət açaraq deyir ki, bu ağac çınqıllı, daşlı və həddindən artıq bərk gilli torpaqları sevmir. Əgər belə torpaqda göycə ərsəyə gətirmək fikrindəsənsə, mütləq alçaya calaq etməlisən. Ancaq unutmaq olmaz ki, yaxşı məhsul verməsi üçün göycə ağacı qüvvətli və yumşaq torpaqlarda əkilməlidir. Geniş bağın salınması üçün ərazinin dərindən şumlanıb hazırlanması vacibdir və əsas diqqət torpağın becərilməsinə verilməlidir. Ağac cavan dövründə çox budanmalıdır ki, meyvə hasil olanadək istənilən formanı ala biləsən. Əks halda, cavan şivlər yalnız ağacın çətiri altında əmələ gələr ki, bu da, son nəticədə, məhsuldarlığın aşağı düşməsinə səbəb olar. Təcrübəmə əsaslanıb söyləyə bilərəm ki, göycə ağacı salındıqdan sonrakı iki il ərzində sürətlə böyüyür, üçüncü ildə məhsula düşür, sonrakı illərdə yaxşı bar verməyə başlayır. Barverən ağacların kökləri torpağın üst qatlarını tamamilə tutduğu üçün həmin qat qüvvədən düşə, məhsuldarlıq azala bilər. Bunun üçün bağlara payızda, torpaq şumlanan dövrdə ərazinin miqyasına uyğun miqdarda fosfor və kalium gübrələrinin verilməsi vacibdir. Bundan başqa, ağacın yaxşı məhsul verməsi üçün onu mütəmadi suvarmaq lazımdır.

Hazırda bağında 300-400 göycə ağacına qulluq göstərən Nicat qeyd edir ki, muxtar respublikada əkin-biçin üçün münbit torpaqların bolluğu, su sarıdan qıtlıq olmaması yüksək məhsuldarlığa yol açır. Bağçılıqdan söhbət düşəndə onu da vurğulamaq yerinə düşər ki, əvvəllər ağacları zərərvericilərdən qorumaq və digər aqrotexniki işləri həyata keçirmək üçün lazım olan vasitələr, dərman preparatları çətin tapılırdı. Lakin "Naxçıvan Toxumçuluq Mərkəzi" publik hüquqi şəxs fəaliyyətə başlayandan bu problemimiz də aradan qalxıb, indi müəssisənin satış mərkəzindən kənd təsərrüfatında istifadə olunan istənilən ləvazimatı sərfəli qiymətə əldə edə bilirik. Məhsulumuzu satmaq üçün də müntəzəm şəkildə yarmarkalar təşkil olunur. Ölkəmizin digər bölgələrindən də Naxçıvan göycəsinə marağın artmasında, ümumiyyətlə, göycə əkin-biçini ilə məşğul olan təsərrüfatçıların həm əməklərinin qiymətləndirilməsində, həm də məhsullarını satıb yaxşıca gəlir götürmələrində muxtar respublikamızda keçirilən ənənəvi "Göycə" festivalları böyük rol oynayır. Müxtəlif bölgələrdə yaşayan həmvətənlərimizin sifarişlərini təmin edəndə fərəhlənirəm. Onu da qeyd edim ki, uğurlarımızın arxasında dövlətimizin yaratdığı əlverişli şəraitlə yanaşı, ailəmizin birliyi də dayanır. Əl-ələ verib əzmlə çalışaraq, bağçılıq sahəsində yenilikləri öyrənib işimizdə tətbiq etməklə özümüzü yaxşı təsərrüfatçı kimi tanıda bilmişik. Budəfəki festivala da cidd-cəhdlə hazırlaşmışıq və inanıram ki, yetişdirdiyimiz məhsulları sərfəli qiymətə sataraq ailə büdcəmizi daha da zənginləşdirəcəyik.



*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamı ilə təsdiq olunmuş "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"ndan irəli gələn vəzifələrin uğurla yerinə yetirilməsi zəngin meyvəçilik ənənələrinin müasir dövrdə daha da inkişafına geniş imkanlar açıb.*

*Hər il ənənəvi şəkildə keçirilən "Göycə" festivalı isə muxtar respublikamızın bu brend məhsulunun tanıdılması, təbliği, eləcə də bu sahədə yeni təsərrüfatların yaradılmasının stimullaşdırılması baxımından mühüm əhəmiyyət daşıyır. Siz də müxtəlif növdə göycə məhsullarından ağız ləzzəti ilə nuş edib, doğmalarınıza, yaxınlarınıza Naxçıvanın ləziz sovqatını alıb göndərmək istəyirsinizsə, bu gün və sabah Naxçıvan şəhərindəki "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində keçiriləcək növbəti "Göycə" festivalında iştirak edin. Burada həm də milli musiqimizdən ibarət konsert proqramı, göycədən hazırlanan əl işləri zövqünüzü oxşayacaq. İnanırıq ki, növbəti festival da maraqlı, yaddaqalan olacaq.*

✍ **Nail ƏSGƏROV**
✍ **Güntac ŞAHMƏMMƏDLİ**
✍ **Gülcamal TAHİROVA**
✍ **Aytac CƏFƏRLİ**

# Şərurda kartof yığımına başlanılıb

Şərur rayonunda kartofun əkilib-becərilməsi ənənəsinin tarixi qədimdir. Ailə təsərrüfatlarında bu istiqamətdə yetərincə təcrübə var. Torpaq-iqlim şəraiti də bu sərfəli bitkinin əkinlərinin genişləndirilməsinə və məhsuldarlığın çoxaldılmasına imkan verir. Ötən il 1374 hektar sahədə kartof əkib-becərən mülkiyyətçilər 24 min 297 ton məhsul istehsal ediblər. Bu il isə məhsuldarlığın yüksəldilməsi və əkin sahələrinin daha da artırılması istiqamətində müvafiq işlər görülür. İntensiv becərmələrə üstünlük verilməklə məhsuldarlıq artırılır. Artıq qədim əkinçilik ənənələrinə malik Şərur rayonunda erkən kartof əkini keçirilən sahələrdə məhsul yığımına



başlanılıb. Məhsul yığımında "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə gətirilən yeni, müasirtipli kartofçıxaran texnikalardan istifadə olunur.

Torpaq mülkiyyətçilərinin kartof əkininə daha çox üstünlük verdikləri Kürçülü, Əlkəli, Sərxanlı, Aralıq, Zeyvə, Cəlilkənd, Məmmədsabir, Düdəngə və digər kəndlərdə məhsul mütəşəkkilliklə toplanılır. Sahələrdə aqrotexniki qaydalara düzgün əməl edildiyindən məhsuldarlıq yüksəkdir. Əldə edilən faraş kartof həm Şərur, həm də Naxçıvan şəhərində yerli bazarı təmin edir.

Uzun illər əkin-biçin işləri ilə məşğul olan təcrübəli təsərrüfatçı, Ailə Təsərrüfatları İctimai Birliyinin sədri Mübariz Şirəliyev faraş kartof məhsulunun əldə edilməsində erkən əkinlərin üstünlüklərindən bəhs edib. O, bir mütəxəssis kimi, torpağın hazırlanması, münbitləşdirilməsi, əkinlərin aqrotexniki qaydalar əsasında aparılması məsələlərindən danışıb.

**Heydər MƏMMƏDOV**



# Bahar təravətli, zəhmət ətirli, zövqoxşayan sənət əsəri...

*Müəllifi təbiətlə insan zəhmətidir bu möhtəşəm sənət əsərinin. Hər naxışı bir-birini müfəssəl şəkildə tamamlayan canlı, həyati əsər baxdıqca baxılır, doymaq olmur saflığından, çıxmaq olmur bir-birinə sarılaraq qol-boyun olan al-əlvan rənglərin ecazkarlıq harmoniyasının təsirindən, beləliklə, silinməz izlər buraxır yaddaşlarda. Oba-oba, qarış-qarış, gəzərək zövq almağa çalışın, seyrinə tələsin hər daşından, qayasından əcdadlarımın nəfəsi duyulan Oğuz yurdunun bahar təravətli gözəlliklərindən ...*

Naxçıvan ilin bütün fəsillərində gözəldir. Yaz fəslində isə başqa bir aləmdir. Ona görə də elə indidən yola çıxın, kənd və şəhərlərimizin seyrinə. Uşaqlıq çağlarınızın şən-şıltaq keçən dövrünə səyahət etmək üçün buyurun günü-gündən müasirləşən kəndlərimizə, abad küçələrdən, döngələrdən keçdikcə qeyri-iradi boylanacaqsız illər arxasına. Xəyalınızın dünənə açılan pəncərəsindən bir anda eşidiləcək munis duyğulu səslər, xatirənizdə canlanacaq, unudulmaz, yaddançıxmaz anlar. Əllərində çörək dəstələri evə tələsən xanımları görən kimi hafizənizdə canlanacaq ana-nənələrin təndir salıb, çörək yapmasını, pendir dürməyi ilə yemək üçün məhəllə uşaqları ilə bağınızdan oğrun-oğrun pomidor qoparmağınızı, həmyaşıdlarınızla oynadığınız “Qovalaqaç”, “Gizlənqaç”, “Qəcəmədaş, “Bənövşə” kimi oyunlar...



Günəşin zərrin şəfəqləri canınızı isitdikcə daha da isinəcək xatirələr, “Gözəllik” adlı bu əsərin hər naxışı sizi keçmişlə bu gün arasındakı nostalji duyğulara kökləyəcək. Bugünkü firavanlığa, büsatlığa rəğbət bəsləyib ürəkdən alqışlayacaq, bəzən gileygüzar edəcəksiniz uşaqlarımızın uşaq oyunlarından kənar düşməsindən. Mənzərələr görmək üçün qonaq olacaqsız əkin-biçin sahələrimizə, bağlarımıza. Qulaq asacaqsız torpağın bağrına sığal çəkərək onu əzizləyən insanların söhbətinə, bir çiçəkdən o birinə uçuşan arıların zəhmət nəğməsinə.



Üz tutun bir-birindən bənzərsiz mənzərələri ilə könülləri riqqətə gətirən, şairlərin, yazıçıların ilham mənbəyinə çevrilən, sinəsini lalələr, süsənlər, nərgizlər bəzəyən Xalxal, Payız, Tillək, Xəlil, Cəlil meşələrinə, qalxın mərcan gözlü Batabat yaylağına, salamlayın turizmin gözü sayılan Ağbulağı, qulaq asın Saranı aparan Arpaçayın zümzüməsinə. Hər bir təbiət guşəsi fərqli aurada, özünəxas naxışları, qonaqpərvərlik üsulu ilə qarşılayaraq mehman edəcək sizi öz isti qoynunda. Ovqatınıza şuxluq gətirən sərin meh, ağac yarpaqlarında bərq vuran Günəş şüaları, quşların cəh-cəhi ruhunuzu oxşayacaq və bu gözəlliklərdən əsla doymayacaqsınız. Əgər yaradıcı insansınızsa, mütləq ya yeni şeirin, rəsm əsərinin, musiqinin, ya da essenin, düşüncə yazılarının yaranmasına vəsilə olacaq bu doyumsuz mənzərələr. Yaxınlıqda qaynayan bulağın gözyaşı kimi dumduru suyundan götürüb açacaqsınız gözəl Naxçıvan nemətləri ilə bəzənən süfrəni. Ruhunuzu öz kəraməti ilə şuxlandıran təbiət qeyri-iradi sıralayacaq yaddaşınızda Xalq şairi Məmməd Arazın misralarını:

*Sinəmdə o yerin dağ havasıdır,*
*Qaynar bulaqları qaynar*
*qanımda.*
*Mənim ürəyimin bir parçasıdır*
*Doğma Şahbuzum da,*
*Naxçıvanım da.*

Bol bəhrəli Şərur, Babək əllərindən, dağlarında min bir nemət bitirən Şahbuzdan, qocaman çinarlar məkanı Ordubaddan, inkişaf salnaməsi ilə düşmənə gözdağı olan Sədərəkdən, gözəllik işığı kimi parlayan Kəngərlidən, Culfadan sonra bayramlar, festivallar şəhəri Naxçıvanı da gəzin mütləq. Mədəni-kütləvi tədbirlərin sevimli ünvanına, rəssamların, incəsənət adamlarının, yaradıcı şəxslərin ilham ocağına çevrilən, yaşıl xalıya bürünən Əcəmi seyrəngahından daha çox duyacaqsınız təbiətin səsini. Salın yolunuzu hər yaş dövründən olan insanları köksünə mehman eyləyən xüsusi landşaft dizaynına malik, əsrlərin sərt sınaqlarına sinə gərən, köksündə illərin həsrətini, hicranını, sevincini, kədərini gizlədən qocaman çınar ağaclarının çətir tutduğu park və xiyabanlara. Ahıl çağındasınızsa, həmyaşıdlarınızla rahat oturacaqlarda əyləşib olanlardan-keçənlərdən, həyatlarınızın ayrı-ayrı dönəmlərində baş verən hadisələrdən söhbət açın, gəncsinizsə, doyunca gəzin füsunkar təbiət ərməğanlarının qoynunda, dəyərini bilin bir daha ələ düşməyəcək belə mənalı günlərin, xatirələşdirin hər anınızı, şəkillər çəkdirin gözəl günlərinizdən yadigar qalsın deyə. Burada da, heç şübhəsiz, qaçılmazdır nostalji hisslərin qoynuna düşməyiniz, keçmişdə yaşananlar yenə pərvaz edəcək düşüncənizdə ağacların əhatəsində qaçdı-tutdu oynayan şən-şaqraq gülüşlü, məsum duyğulu uşaqların şıltaqlığı ilə. Bu mənzərələri gördükcə insan övladının təbiətə, yaşıllıqlara sıx bağlılığının bir daha şahidi olub haqq qazandıracaqsınız mütəxəssislərin, psixoloqların yaşıl rəngin insana sakitləşdirici təsir göstərdiyi, gözlərə müsbət enerji bəxş etdiyi, ətraf mühitin yaşamaq-yaratmaq ruhu aşıladığı, təbiət sağlamlığın rəhnidir fikirlərinə. Beləcə, sağlamlığımızın keşiyində duran ana təbiəti qoruyanlara, yaşadanlara daha da çoxalacaq rəğbətiniz, artacaq yaşıllıqlara cidd-cəhdlə qulluq göstərən insanlara minnətdarlıq hissiniz, dərindən dərk edəcəksiniz bu xeyirxah missiyanı yerinə yetirmək üçün mənəvi məsuliyyətinizi...

Oğuz yurdunun köksündə xalı kimi toxunan insan zəhməti ilə təbiətin harmoniyasından yaranan bahar təravətli, zəhmət ətirli, zövqoxşayan bu sənət əsərini seyr etdikdə Xalq şairi Bəxtiyar Vahabzadənin “Dərin qatlara işıq” adlı kitabındakı ana təbiətin mühafizəsi ilə bağlı böyük ictimai məzmun kəsb edən fikirlərinin həqiqətinə bir daha varacaqsınız: “Həyatda hər cür çatışmazlıq nizamın, tarazlığın pozulmasından doğur. İstər təbiət, istərsə də cəmiyyətdəki bütün nizamlılıq və mütənasib inkişaf adamların fəal həyat mövqeyindən asılıdır. Xalq demişkən, qayda-qanun olan yerdə xeyir-bərəkət üzülməz. Bərəkətin tükənməsi halı insanların yalnız və yalnız ətraf mühitə laqeydliyindən, torpağa, suya, bir sözlə, flora və faunaya xor baxmasından irəli gəlir. Təbiəti müqəddəs bilmək, onu ana hesab etmək əsrlərboyu insanları zaman-zaman düşündürmüşdür. Bu hissə ehkam kimi yanaşmaq olmaz”. Elə bu düşüncələrlə qəlbinizdə bahar təravətli, zəhmət ətirli, zövqoxşayan sənət əsərinin müəlliflərini, sizə bu mənəvi zövqü nəsib edənləri alqışlayıb, dilə gətirəcəksiniz ən pak, ülvi istəklərinizi: yurdumuzun köksündə parlayan bu sənət əsərinin çalarlarının hər ötən il daha zəngin, elimizin-obamızın bar-bərəkətinin bol, əmin-amanlığın, firavanlığın, nizamın daim belə bərqərar olması, ömrümüzün bahar rayihəsinə bürünməsi, arzularımızın, ümidlərimizin həmişəbahar gülü kimi ətir saçması diləyi ilə...

**Nail ƏSGƏROV**

## Naxçıvan Muxtar Respublikasının Dövlət İmtahan Mərkəzi Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin Aparatında və tabe idarələrində vakant vəzifələrin tutulması üçün müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər 4 iyun-4 iyul 2022-ci il tarixlərdə Naxçıvan Muxtar Respublikasının Dövlət İmtahan Mərkəzinin internet portalında *(www.dim.nmr.az)* “şəxsi kabinet” bölməsinə daxil olaraq elektron müraciət formasını doldurmaqla qeydiyyatdan keçməlidirlər.

Namizədlər 90 manat ödəniş məbləğini “şəxsi kabinet” vasitəsilə bank kartları ilə ödəyə bilərlər. Digər halda həmin məbləğ Dövlət İmtahan Mərkəzinin “Naxçıvanbank” ASC-dəki bank hesabına (AZ50NAXB36015000024840000AZN) ödənməli və ödənişə dair qəbz həftənin iş günləri saat $9^{00}$-dan $12^{30}$-dək və $14^{00}$-dan $17^{30}$-dək mərkəzə təqdim edilməlidir.

Namizəd bir neçə vakant vəzifənin tutulması üçün müraciət edə bilər.

Namizədlər elektron müraciət formasını doldurarkən iddia etdikləri vakant vəzifələrin tutulma şərtlərini nəzərə almalıdırlar.

Qeydiyyatdan keçməkdə çətinlik çəkən namizədlər Dövlət İmtahan Mərkəzinə gəlməklə müraciət edə bilərlər.

***Maraqlananlar mərkəzin (036) 545-65-71 nömrəli əlaqə telefonu və ya dim@nmr.az elektron poçt ünvanı vasitəsilə ətraflı məlumat əldə edə bilərlər.***

| Vəzifə kodu | Struktur bölmə və vəzifə | Ştat sayı |
|---|---|---|
| **1. Aparat** | | |
| 370605 | İqtisadiyyat və maliyyə təsərrüfatı şöbəsi, aparıcı məsləhətçi-mühasib | 1 |
| **2. Material Texniki Təchizat və Nəqliyyat İdarəsi** | | |
| 370080243 | Mühasibatlıq, mühasib | 1 |
| **3. Texniki Nəzarət, Hidrotexniki Qurğuların və Subartezian Quyularının Təmiri İdarəsi** | | |
| 370090627 | Subartezian quyularının qazılması sahəsi, mühəndis | 1 |
| 370090227 | Texniki nəzarət şöbəsi, mühəndis | 1 |
| **4. Kəhrizlər İdarəsi** | | |
| 370100204 | Texniki şöbə, mühəndis | 1 |
| **5. Şərur Rayon Meliorasiya və Su Təsərrüfatı İdarəsi** | | |
| 370010627 | Subartezian quyuları sahəsi, mühəndis | 1 |
| 370010822 | Sutəmizləyici qurğular kompleksi, baş mütəxəssis | 1 |
| **6. Babək Rayon Meliorasiya və Su Təsərrüfatı İdarəsi** | | |
| 370020401 | Nasos stansiyaları sahəsi, sahə rəisi | 1 |
| 370020429 | Nasos stansiyaları sahəsi, mühəndis-texnik | 1 |
| **7. Ordubad Rayon Meliorasiya və Su Təsərrüfatı İdarəsi** | | |
| 370030135 | Aparat, əməyin mühafizəsi və təhlükəsizlik texnikası üzrə mühəndis | 1 |
| 370030106 | Aparat, inzibati ərazilər üzrə nəzarətçi-mühəndis | 1 |
| 370030701 | İçməli su və təmir sahəsi, sahə rəisi | 1 |
| **8. Kəngərli Rayon Meliorasiya və Su Təsərrüfatı İdarəsi** | | |
| 370060102 | Aparat, baş mühəndis | 1 |
| 370060106 | Aparat, inzibati ərazilər üzrə nəzarətçi-mühəndis | 1 |
| 370060201 | Suvarma sistemlərinin istismarı və sudan istifadə şöbəsi, şöbə rəisi | 1 |
| 370060727 | İçməli su və təmir sahəsi, mühəndis | 1 |
| 370060226 | Suvarma sistemlərinin istismarı və sudan istifadə şöbəsi, iqtisadçı | 1 |
| **9. Şahbuz Rayon Meliorasiya və Su Təsərrüfatı İdarəsi** | | |
| 370050135 | Aparat, əməyin mühafizəsi və təhlükəsizlik texnikası üzrə mühəndis | 1 |
| 370050501 | Göllər və kanallar sahəsi, sahə rəisi | 1 |
| 370050429 | Nasos stansiyaları sahəsi, mühəndis-texnik | 1 |
| 370050727 | İçməli su və təmir sahəsi, mühəndis | 1 |
| **10. Sədərək Rayon Meliorasiya və Su Təsərrüfatı İdarəsi** | | |
| 370070102 | Aparat, baş mühəndis | 1 |
| 370070132 | Aparat, kadr və kargüzarlıq işləri üzrə mütəxəssis | 1 |
| 370070225 | Suvarma sistemlərinin istismarı və sudan istifadə şöbəsi, məlumat hesablama mərkəzi üzrə mütəxəssis | 1 |
| 370070226 | Suvarma sistemlərinin istismarı və sudan istifadə şöbəsi, iqtisadçı | 1 |
| **Cəmi:** | | **25 yer** |

## Teatr müsabiqəsinin qalibləri bəlli olub



*Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman, Mədəniyyət nazirliklərinin birgə təşkilatçılığı ilə muxtar respublikada fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrinin teatr studiyaları arasında keçirilən müsabiqəyə yekun vurulub.*

Münsiflər heyətinin yekun qiymətləndirməsinə əsasən Naxçıvan Dövlət Universitetinin komandası müsabiqənin qalibi adına layiq görülüb. Naxçıvan Dövlət Texniki Kolleci və Naxçıvan Müəllimlər İnstitutunun teatr studiyaları müvafiq olaraq ikinci, üçüncü sıralarda qərarlaşıblar. İlk üçlükdəki komandalar diplom, plaket və hədiyyələrlə mükafatlandırılıb.

Sonda Naxçıvan Dövlət Universitetinin tələbələri onlara uğur gətirən “Kimdir müqəssir?” tamaşasını nümayiş etdiriblər.

**Ceyhun MƏMMƏDOV**

### *İtmişdir*

Şərur rayonu, Qarxun kənd sakini Rzayeva Nazilə Bəylər qızının adına verilmiş JN-716$^{A}$ inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhəri, Babək məhəlləsi, bina $1^{A}$, mənzil 1/1,3,5 ünvanda Əsədli Ülkər Elmədin qızının adına olan 16034 inventar nömrəli texniki pasport və MH-0060106 nömrəli daşınmaz əmlakın dövlət reyestrindən çıxarışı itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Ceyhun Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 493